# CHINA'S FOREIGN INVESTMENT STRATEGIES – THE IMPACT OF THE "GO GLOBAL" POLICY ON THE CAUCASUS

**Tarifa Jafarzade**[1]
**Alimusa Ibrahimov**[2]

**UDC:** 339.727.5(510):339.9(479)
**LBC:** 65.5(Chin,531)
**HoS:** 122
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.213-219

**Keywords:**

China,
Economic globalization,
Go Global strategy,
Huawei,
BYD,
TikTok,
South Caucasus,
High-tech manufacturing,
Investment

## ABSTRACT

Economic globalization, characterized by the internationalization of trade, investment, and production, as well as the emergence of global value chains, has turned transnational corporations into leading actors in this process. The shift of supply directions in the automobile industry, as well as the relocation of electronics, robotics, automation, and tech industries, has drawn attention to China's outward investment strategies and their impact on various regions.

Within the framework of the strategy officially launched by the People's Republic of China in 2000, leading companies such as Huawei, Alibaba, Lenovo, BYD and COSCO play an active role in foreign investment flows. The strategy, which supports the expansion of Chinese companies into global markets, continues to affect the economic development of the South Caucasus countries – particularly Azerbaijan – by influencing infrastructure projects, energy and transportation sectors, as well as China's role in regional cooperation formats.

China's sustained economic growth has not only expanded its global influence but also transformed the country into an active participant in globalization. Integration inti global economic processes plays a crucial role for China in terms of expanding access to international markets. China rapidly enters the domestic markets of the regions with which it trades, becoming a strong competitor for local producers. The increasing impact of China's "Go Global" strategy, developed within the framework of economic globalization, on the geography of foreign investments – particularly in the South Caucasus region – is an inevitable process. The objective of this study is to analyze the four developmental phases of China's "Go Global" strategy and to identify the specific characteristics of this strategy in the South Caucasus direction.

[1] Student of International Relation and Economy, Baku State University; Baku, Azerbaijan (corresponding author)
E-mail: cfrzadehtrif@gmail.com
https://orcid.org/0009-0007-5810-2121
[2] Doctor of Philosophy in Political Science, Associate Professor,
Faculty of International Relations, Baku State University; Baku, Azerbaijan
E-mail: ibrahimovalimusa95@gmail.com
https://orcid.org/0000-0003-4413-744X

**To cite this article:** Jafarzade, T., & Ibrahimov, A. [2025]. China's Foreign Investment Strategies – The Impact of the "Go Global" Policy on the Caucasus. *History of Science journal*, *6*(5), pp.213-219.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.213-219

***Article history:***
*Received: 04.10.2025*
*Revised: 05.11.2025*
*Accepted: 01.12.2025*
*Published: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ÇİNİN XARİCİ İNVESTİSİYA STRATEGİYALARI – “GO GLOBAL” SİYASƏTİNİN CƏNUBİ QAFQAZA TƏSİRİ

**Tərifə Cəfərzadə**[1]
**Əlimusa İbrahimov**[2]

**UOT:** 339.727.5(510):339.9(479)
**KBT:** 65.5(Çin,531)
**HoS:** 122
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.213-219

**Açar sözlər:**

Çin, İqtisadi qloballaşma, “Go Global” startegiyası, Huawei, BYD, COSCO, Cənubi Qafqaz, Yüksək texnologiyalı istehsal, İnvestisiya

**ANNOTASİYA**
İqtisadi qloballaşma ticarət, investisiya, istehsalın beynəlxalq səviyyəyə yüksəlməsi və qlobal dəyər zəncirinin meydana gəlməsi ilə Transmilli Korporasiyaları prosesin aparıcı aktoruna çevirmişdir. Əsasən də avtomobil sənayesinin tədarük istiqamətinin, eloktronika, robotexnika və avtomatlaşdırma, kosmos və aerokosmik texnologiya istehsalının Asiyaya yönəlməsi, yüksək texnologiyalı sənayenin inkişafı Çinin xaricə investisiya strategiyaları və bu siyasətin regionlara təsiri maraq doğurur.

Çin Xalq Respublikasının rəsmi olaraq 2000-ci ildən istifadə verilmiş strategiyası çərçivəsində beynəlxalq iqtisadi fəaliyyətdə olan Huawei, Alibaba, Lenovo, BYD, COSCO kimi aparıcı şirkətlər xarici invetisiya axınlarında fəal rol oynayırlar. Çin şirkətlərinin dünya bazarlarına çıxmasını dəstəkləyən strategiya Cənubi Qafqaz ölkələrinin, xüsusən də Azərbaycanın iqtisadi inkişafına, infrastruktur layihələrinə, enerji və nəqliyyat sahələrinə, həmçinin regional əməkdaşlıq formatlarında oynadığı rola təsir göstərməkdədir.

Çinin davamlı iqtisadi artımı onun qlobal təsirini genişləndirməklə yanaşı, ölkəni qloballaşmanın fəal iştirakçısına çevirmişdir. Qlobal iqtisadi proseslərə inteqrasiya Çin üçün beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi baxımından mühüm rol oynayır. Çin öz məhsulları ilə ticarət apardığı regionların daxili bazarlarına çox sürətlə daxil olur və yerli istehsalçılar üçün güclü rəqib olur. Çinin iqtisadi qloballaşma prosesində formalaşdırdığı “Go Global” strategiyasının xarici investisiyaların coğrafiyasına və xüsusilə Cənubi Qafqaz regionuna təsirinin artması qaçılmaz prosesdir. Tədqiqatın vəzifəsi Çinin “Go Global” strategiyasının dörd inkişaf dövrünü təhlil etmək və bu strategiyanın Cənubi Qafqaz istiqamətinin xüsusiyyətlərini müəyyən etməkdir.

[1] Bakı Dövlət Universiteti, Beynəlxalq Münasibətlər və İqtisadiyyat Fakültəsinin Tələbəsi; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: cfrzadehtrif@gmail.com
https://orcid.org/0009-0007-5810-2121
[2] Siyasi elmlər üzrə Fəlsəfə Doktoru, dosent,
Bakı Dövlət Universiteti, Beynəlxalq münasibətlər fakültəsi; Bakı, Azərbaycan
E-mail: ibrahimovalimusa95@gmail.com
https://orcid.org/0000-0003-4413-744X
**Məqaləyə istinad:** Cəfərzadə, T., & İbrahimov, Ə. [2025]. Çinin Xarici İnvestisiya Strategiyaları – “Go Global” Siyasətinin Cənubi Qafqaza Təsiri. *History of Science jurnalı*, *6*(5), səh.213-219.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.213-219

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 04.10.2025*
*Yenidən baxılıb: 05.11.2025*
*Təsdiqlənib: 01.12.2025*
*Dərc olunub: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ВНЕШНИЕ ИНВЕСТИЦИОННЫЕ СТРАТЕГИИ КИТАЯ – ВЛИЯНИЕ ПОЛИТИКИ «GO GLOBAL» НА КАВКАЗ

**Тарифа Джафарзаде**[1]
**Алимуса Ибрагимов**[2]

**УДК:** 339.727.5(510):339.9(479)
**ББК:** 65.5(Кит,531)
**HoS:** 122
**DOI:** 10.33864/2790-0037.2025.v6.i5.213-219

**Ключевые слова:**

Китай, Экономическая глобализация, Стратегия «Go Global», Huawei, BYD, TikTok, Южный Кавказ, Высокотехнологичное производство, Инвестиции

## АННОТАЦИЯ

Экономическая глобализация, характеризующаяся интернационализацией торговли, инвестиций и производства, а также формированием глобальных цепочек добавленной стоимости, превратила транснациональные корпорации в ведущих акторов этого процесса. Смещение направлений поставок в автомобильной промышленности, а также перенос производств электроники, робототехники, автоматизации и высокотехнологичных отраслей в Азию привлекли внимание к внешним инвестиционным стратегиям Китая и их влиянию на различные регионы.

В рамках стратегии, официально запущенной Китайской Народной Республикой в 2000 году, ведущие компании, такие как Huawei, Alibaba, Lenovo, BYD и COSCO, играют активную роль в потоках зарубежных инвестиций. Эта стратегия, поддерживающая выход китайских компаний на мировые рынки, продолжает оказывать влияние на экономическое развитие стран Южного Кавказа – особенно Азербайджана – посредством воздействия на инфраструктурные проекты, энергетический и транспортный сектора, а также на роль Китая в региональных форматах сотрудничества.

Устойчивый экономический рост Китая не только расширяет его глобальное влияние, но и превращает страну в активного участника процессов глобализации. Интеграция в глобальные экономические процессы играет важную роль для Китая с точки зрения расширения возможностей выхода на международные рынки. Китай очень быстро проникает на внутренние рынки тех регионов, с которыми ведёт торговлю своей продукцией, становясь сильным конкурентом для местных производителей. Увеличение влияния стратегии Китая «Go Global», сформированной в процессе экономической глобализации, на географию зарубежных инвестиций и особенно на регион Южного Кавказа является неизбежным процессом. Задачей исследования является анализ четырёх этапов развития стратегии «Go Global» Китая и определение особенностей её направления в отношении Южного Кавказа.

[1] Студентка Факультета международных отношений, Бакинский государственный университет; Баку, Азербайджан (ответственный автор)
E-mail: cfrzadehtrif@gmail.com
https://orcid.org/0009-0007-5810-2121
[2] Доктор философии в области политических наук, доцент,
Факультета международных отношений, Бакинский государственный университет; Баку, Азербайджан
E-mail: ibrahimovalimusa95@gmail.com
https://orcid.org/0000-0003-4413-744X

**Цитировать статью:** Джафарзаде, Т., & Ибрагимов, А. [2025]. Внешние Инвестиционные Стратегии Китая – Влияние Политики «Go Global» на Кавказ. *Журнал History of Science*, *6*(5), с.213-219.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i5.213-219

***История статьи:***
*Поступила: 04.10.2025*
*Переработана: 05.11.2025*
*Принята: 01.12.2025*
*Опубликована: 15.12.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Bu tədqiqat "Go Global" strategiyasının müxtəlif mərhələlərində xarici investisiya siyasətinin necə formalaşdırmış olması və 2020-2022-ci illərin geopolitik proseslərinin Cənubi Qafqazın Çin üçün strateji əhəmiyyətini nə dərəcədə artırdığı suallarına cavab axtarır. Suallar əsasında irəli sürülən əsas hipotez budur ki, Çinin xarici investisiya siyasətindəki dəyişikliklər yalnız iqtisadi amillərdən deyil, eyni zamanda beynəlxalq tranzit marşrutlarının yenidən formalaşdırılmasından və geopolitik balansın dəyişməsindən qaynaqlanır. İkinci hipotez isə, Cənubi Qafqaz, xüsusillə Azərbaycanın nəqliyyat-logistika potensialı, Çinin Avropaya yönələn Şərq-Qərb ticarət marşrutlarında strateji mövqeyinin güclənməsinə əhəmiyyətli dərəcədə töhfə verir.

Tədqiqatda keyfiyyət yönümlü analitik metodlardan istifadə olunur. Çinin iqtisadi inkişaf modeli, xarici ticarət dinamikası və liman infrastrukturunun rolu haqqında mövcud elmi ədəbiyyatın və beynəlxalq təşkilatların hesabatlarının təhlili aparılır. Cənubi Qafqaz üzrə xüsusi olaraq regional geopolitik dəyişikliklərin – xüsusilə 2020-ci il İkinci Qarabağ müharibəsi və 2022-ci il Rusiya-Ukrayna müharibəsinin – Çin tranzit siyasətinə təsiri event-analizi metodu ilə qiymətləndirilir. Toplanan məlumatlar əsasında Çinin regionda artan iqtisadi iştirakının səbəbləri və nəticələri analitik çərçivədə ümumiləşdirilir.

## 2.Çin iqtisadiyyatının qloballaşmaya daxil olması

Den Syaopinin 1978-ci ildən həyata keçirdiyi islahatlar və "açıq qapı" siyasəti Çinin sürətli iqtisadi artımının əsasını qoydu. İxrac yönümlü inkişaf strategiyası ölkənin qlobal dəyər zəncirinin əmək bölgüsünə fəal şəkildə qoşulmasını təmin edərək, Çini qısa müddətdə böyük istehsal bazasına və mühüm ixrac üstünlüyünə sahib aktora çevirdi.

Çin 1970-ci illərdə əsasən dövlət mülkiyyətinə əsaslanan "planlı iqtisadiyyat" strukturu ilə xarakterizə olunurdu. Həmin dövrdə dövlət müəsisələri ümumi sənaye istehsalının 77.6%-i, özəl müəsisələr isə cəmi 22.4%-dən artıq deyildi. İslahatların nəticəsi olaraq özəl sektorun rolu tədricən gücləndi və 2016-cı ilə gəldikdə özəl müəssisələrin sənaye istehsalındakı payı isə 80%-ə yüksəldi, dövlət müəssisələrinin payı isə 20%-ə qədər azaldı. Bununla belə, "sosialist bazar iqtisadiyyatı" modeli strateji sahələrdə - energetika, telekommunikasiya və hərbi sənayedə - dövlətin dominant mövqeyini qoruyaraq digər sahələrdə bazar mexanizmlərinin innkişafına şərait yaratdı. 1970-1990-cı illəri əhatə edən transformasiya prosesi Çində dövlət idarəçiliyi, inkişaf modeli və beynəlxalq davranış kimi sahələrdə qavrayışın dəyişməsi ilə müşayiət olundu. Bunun əsas səbəbi ölkənin qlobal siyasi, iqtisadi və hərbi sistemdə getdikcə güclənən mövqeyi idi [1].

Çinin yüksəlişinin bəzən "təhdid" kimi qəbul edilməsi Pekini bu təsəvvürün qarşısını almağa və xarici siyasətdə yumşaq güc elementlərini daha aktiv istifadə etməyə vadar etdi. Bu strategiya Çinin iqtisadi layihələrini – ticarət, investisiya, infrastruktur və logistika təşəbbüslərini – regional etimad, diplomatik əlaqələr və təhlükəsizlik mexanizmləri ilə tamamlayaraq onları qlobal səviyyədə qəbul edilən, "təhdid yaratmayan" alətlərə çevirdi [2].

Çin "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində xaricdə strateji limanlar inşa edərək yeni marşrutlara nəzarətini artırır, logistikanı özündən asılı hala gətirir və öz məhsullarının qlobal dövriyyəsini daha da sürətləndirir. Bununla da daxildə güclü liman infrastrukturu – Şanxay, Şençjen, Tyanjin, Qingdao və Dalian, xaricdə isə genişlənən logistika şəbəkəsi Çinin dünya miqyasında iqtisadi təsirini artıran əsas amilə çevrilmişdir. Çinin ən işlək limanları avtomobil, elektronika, tekstil və digər sənaye məhsullarının dünya bazarlarına çıxışında həlledici rol oynayır. Müasir infrastruktur, avtomatlaşdırılmış yükləmə sistemləri və iri konteyner terminalları bu limanlarda sürətli və səmərəli ticarətə imkan yaradır. Regionların beynəlxalq logistika şəbəkələri ilə əlaqələndirilməsi, yeni ticarət marşrutlarının formalaşması da böyük ölçüdə məhz bu limanların imkanları sayəsində baş verir. Hazırda dünyanın ən böyük 10 konteyner limanından 8-nin Çində yerləşməsi və ölkənin xarici

ticarətinin 90%-nin bu limanlar sayəsində reallaşması onların iqtisadi əhəmiyyətinin bariz nümunəsidir.

Den Syaopinin 7 iyul 1962-ci il Kommunist Gənclər Liqasının toplantısında "Siçan tutduğu müddətcə pişiyin ağ və ya qara olmasının fərqi yoxdur" ifadəsi kommunizm və ya kapitalizm kimi ideologiyalara bağlı qalmaq yerinə praqmatik, nəticəyə yönəlmiş siyasət yeritməyin fayda verəcəyini vurğulayırdı. Məhz buna görə Çinin iqtisadi modelini nə təmamilə kapitalist, nə də klassik sosialist sistem adlandırmaq düzgün deyil, bu model dövlətin iqtisadiyyatda fəal yönləndirici rolu ilə bazar prinsiplərinin çevik sintezini qorumaqdan ibarətdi [3].

Qapalı sənaye sahələrində fəaliyyət göstərən transmilli korporasiyalar, əslində, yalnız iqtisadi məqsəd daşımır, həm də dövlətin milli təhlükəsizlik və strateji maraqlarını təmin edən alətlərə çevrilmişdir. Çin hökuməti iqtisadiyyatının "əsas sütunları" sayılan sahələri – enerji, müdafiə və hərbi texnologiya, telekommunikasiya, media və informasiya sektorları tam və ya qismən öz nəzarətində saxlayaraq xarici investisiyalara ciddi məhdudiyyətlər qoyur. Dövlətin iqtisadi fəaliyyət üzərində daimi nəzarəti saxlanır və bazar mexanizmləri də dövlət planlamasının sərhədləri daxilində işləyir [4].

Çin möcüzəsinin əsasında Çinin kənd təsərrüfatı islahatlarını uğurla həyata keçirməsi dayanır. Çinin planladığı iqtisadiyyatı əldə etməsi üçün birinci xalqını qida və ərzaqla tam təmin etməyi bacarmalıydı. On agörə də kənd təsərrüfatı islahatlarının müsbət nəticəsi digər məsələlərində yolunu açdı. Den Syaopin Çində modernləşmənin qurulmasının çox çətin şəraitdə möhkəm quruculuq ruhu tələb etdiyini demişdir. Ancaq ölkə hələ yoxsuldur, quruculuğun bünövrəsi zəifdir. Az əməkhaqqı qarşılığında məhsulları xaricə çıxarmaq mümkündür. Ancaq Çin xarici ölkələrin pul vəsaitlərindən və texnikasından istifadə edərək ticarəti inkişaf etdirdi [3].

**3."Go Global" strategiyası, mərhələləri və bu strategiyanın Cənubi Qafqaz ölkələrinə təsiri**

Çin dünyanı investisiya ilə necə fəth etdi?

"Go Global" strategiyası Çin şirkətlərinin dünyaya çıxması, xaricdə yatırım etməsi, yeni bazarlara daxil olmasına imkan yaradan çox vacib siyasi xəttdir. Xarici bazarlara Çin məhsullarının çıxışı həm də tələbin artmasına gətirib çıxardı ki, Çin artıq yeni enerji və xammal ehtiyyatlarına ehtiyac duymağa başladı. "Made in China" məhsulları ilə qlobal bazarları sürətlə dolduran Çin, ucuz əmək resursları və inkişaf etmiş infrastrukturunun verdiyi üstünlüklər hesabına böyük həcmdə xarici sərmayəni özünə cəlb etmişdir. "Bir Kəmər, Bir Yol" təşəbbüsü Asiyadan Afrikaya, Avropadan Latın Amerikasına qədər geniş bir nəqliyyat-logistika və iqtisadi inteqrasiya şəbəkəsi formalaşdıraraq, iştirakçı ölkələrdə qarşılıqlı asılılıq yaratmışdır.

"Go Global" siyasəti Çinin xarici birbaşa investisiyalarının həcmini kəskin şəkildə artırdı. Çin şirkətləri enerji, infrastruktur, telekommunikasiya, maliyyə, kənd təsərrüfatı və istehsal sahələrində xarici layihələrə sərmayə yatırmağa başladılar. Məsələn, CNPC (China National Petroleum Corpopration) kimi iri dövlət müəssisələri limanlar, boru kəmərləri və logistika mərkəzlərinə investisiya yatıraraq qlobal enerji təchizat zəncirində öz mövqelərini gücləndirdilər.

Strategiyanın ilk mərhələsində Çin şirkətləri əsasən Yaxın Şərq və Şimali Afrikada tikinti layihələrində iştirak etməklə xarici valyuta qazanmağa çalışırdılar. Çin infrastruktur və tikinti layihələrinə üstünlük verməklə işə başladı, beynəlxalq tenderlərə qoşularaq yollar, körpülər, binalar tikdilər. Çinin 1990-cı illərdə ixracı zəif idi, beynəlxalq brendləri mövcud deyildi, iqtisadiyyatın ikişafın üçün xarici valyuta qazanmağa ehtiyac vardı. Tikinti layihələri ilə qlobala çıxış Çin şirkətlərinə xariclə işləməyi öyrətdi [5].

Sonrakı mərhələdə Çin enerji və xammal idxal etmək üçün bir sıra addımlar atdı. Çünki daxildəki resurslar onu təmin etmirdi. Çin dövlət müəssisələri xarici təbii sərvətlər əldə

etmək üçün Qazaxıstandakı neft yataqlarının və Avstraliyadakı mədənləri almağa başladılar. Nəticədə həm enerji təhlükəsizliyi əldə olundu, həm də sənayenin fasiləsiz işləməsi təmin edildi.

Üçüncü mərhələdə Çin şirkətləri texnoloji üstünlük əldə etmək məqsədilə xarici firmaları satın almağa başladılar; məsələn, TCL-nin Thomson-un rəngli televizor bölməsini alması ilə Avropa və ABŞ bazarlarına girişi asanlaşdı. Reklam və marka tanıtım xərcləri sıfıra enməklə bu günə kimi sadəcə Çində tanınan şirkət öz imicini yüksəltdi. Thomson-un uzun illər formalaşdırdığı R&D bilikləri, dizayn standartları, keyfiyyət nəzarəti sayəsində TCL həmin bilikləri öz istehsalına inteqrasiya etdi.

2010-cu ildə Çin dünyanın ikinci ən böyük iqtisadiyyatına çevrildikdən sonra "Go Global" siyasəti yeni mərhələyə daxil oldu və Çin şirkətləri qlobal aktivlərin genişmiqyaslı bölüşdürülməsinə keçid edərək beynəlxalq bazarlarda daha aqressiv mövqelər tutmağa başladılar. Çin şirkətləri artıq maliyyə, logistika, istehsal, enerji və digər strateji sahələr üzrə qlobal aktivlərə sərmayə qoymağa başladılar. Xüsusilə bu mərhələ Çin şirkətlərinin regional aktordan beynəlxalq güc mərkəzinə çevrilməsi ilə nəticələndi.

Çin strateji aktivləri sistemli şəkildə ələ keçirməklə geo-iqtisadi təsir mexanizmi qurmağı hədəfləyir. Bu proses təkcə kapital ixracı deyil. Çin bir şirkət və ya liman alanda, əslində, həmin ölkənin kritik infrastrukturunda strateji mövqe əldə etmiş olur. Çinin Cənubi Qafqazda maraqlarının olması regiondakı Rusiya amili ilə məhdudlaşmır. Çin "Bir Kəmər, Bir Yol" layihəsində Cənubi Qafqazı nəzərə almamışdı, marşrut xəttlərinin Rusiyanın ərazisindən keçməsi planlanırdı. Lakin 2020-ci il İkinci Qarabağ müharibəsi və 2022-ci il Rusiya-Ukrayna müharibəsinin geostrateji və geosiyasi nəticələri Rusiyanın tranzit marşrutlarını pozdu və Pekin indi Azərbaycanı və regiondakı qonşularını Çini Avropaya birləşdirən alternativ Şərq-Qərb yollarında vacib görür. Xüsusilə Azərbaycanın limanların, dəmir yollarının və avtomobil yollarının təkmilləşməsi üçün külli miqdarda vəsait xərcləməsi "Bir Kəmər, Bir Yol" layihəsinə nəqliyyatın cəlb edilməsində çox vacib məsələdir [6].

2023-cü ildə Qazaxıstan, Azərbaycan və Gürcüstanın dəmir yolu şirkətlərinin birlikdə "Middle Corridor Multimodal Ltd." adlı müəssisə yaratması Orta dəhlizin geosiyasi baxımdan institusionallaşmasının mühüm mərhələsi kimi qiymətləndirlə bilər. Rusiyanı yan keçərək Çin ilə Avropanı birləşdirən bu marşrut Ukrayna müharibəsi və sanksiyalar fonunda Şimal Dəhlizinin riskli hala gəlməsi səbəbindən Şərq-Qərb ticarət əlaqələrinin təhlükəsizliyi baxımından strateji alternativə çevrilmişdir. Bu proses Çin üçün Avropa bazarlarına fasiləsiz çıxış, Avropa üçün isə Rusiyadan logistik asılılığın azalması deməkdir. Beləliklə, Cənubi Qafqaz ölkələrinin tranzit yolu yalnız iqtisadi deyil, həm də geopolitik çərçivədə əhəmiyyətli dərəcədə yüksəlmişdir.

Azərbaycanın Ələt limanını genişləşdirməyə yönəlmiş fəaliyyəti və Bakı-Tbilisi-Qars dəmir yolunun müasirləşdirilməsi regionun logistika potensialını artırmaqla yanaşı, ölkənin qloba ticarət axınlarında mühüm qovşağa çevrilməsinə xidmət etmişdir. Bu infrastruktur Azərbaycanın geosiyasi manevr imkanlarını genişləndirməyə kömək etmişdir. İnnovativ inkişaf Azərbaycan və Çin arasında birbaşa Transxəzər marşrutlarının inkişafı üçün gömrük prosedurlarının sadələşdirilməsi və yeni avtomobil nəqliyyatı sazişlərində razılıqlar əldə etməyə təşəbbüsünü özündə əks etdirir. Türkiyə və Mərkəzi Asiya dövlətləri ilə inteqrasiyanın güclənməsi, eləcə də BTQ xətti vasitəsilə Türkiyənin Avrasiya logistik sistemində rolunun artması Orta Dəhlizi pan-Türk coğrafiyasının mühüm iqtisadi və siyasi təməl xəttlərindən birinə çevirir. Bu amil regionda güc balansını dəyişdirərək Rusiyanın tranzit üstünlüyü zəiflətmişdir, Qərbin alternativ marşrut axtarışlarını gücləndirərəq Çin üçün təhlükəsiz ticarət yollarının şaxələndirilməsinə şərait yaradır.

## 4.Nəticə

Beləliklə yaranmış yeni geosiyasi reallıq göstərir ki, Cənubi Qafqaz üzərində formalaşan Orta Dəhliz həm Çin, həm də region ölkələri üçün qarşılıqlı asılılıq yaradan strateji infrastruktur xəttinə çevrilmişdir. İnfrastrukturun modernləşməsi Azərbaycan, həm Gürcüstan, həm də Ermənistan üçün yeni ticarət imkanları yaradaraq regional bazarların əlaqəliliyini gücləndirir. Yolların və limanların genişlənməsi xarici kapital axışını təşviq edir, bununla da ölkələr arasında iqtisadi əməkdaşlıq siyasi münasibətləri sabitləşdirən amilə çevrilir. Bu proses uzunmüddətli perspektivdə region ölkələri arasında qarşıdurma ehtimallarını azaldaraq, Cənubi Qafqazı daha proqnozlaşdırılan və əməkdaşlığa açıq geostrateji məkan halına gətirir.

## 5.REFERENCES

1. Lardy, N. (2018). *China's 40 years of reform and development (1978–2018)*. Australia: Australian National University, 29–36. (in Azerbaijani)
2. Ahmadov, K., & Gadirov, A. (2024). "Smart power" strategy in Chinese foreign policy. *Geostrategiya Journal*, 61–67. https://doi.org/10.30546/3006-0346.2024.4.82.42 (in Azerbaijani)
3. Samadzade, Z. (2009). *China in the global world economy*. Baku, 154–163. (in Azerbaijani)
4. Nayton, B. (2007). *The Chinese economy: Transitions and growth*. Cambridge: Massachusetts Institute of Technology, 333–343. (in Azerbaijani)
5. Miller, T. (2017). *China's Asian dream: Empire building along the New Silk Road*. London: Zed Books, 93–124. (in Azerbaijani)
6. Macaes, B. (2018). *One Belt, One Road: China and the world order*. London, 177. (in Azerbaijani)

## ƏDƏBİYYAT

1. Lardy, N. (2018). *Çinin 40 illik islahat və inkişafı (1978–2018).* Avstraliya: Avstraliya Milli Universiteti, 29–36.
2. Əhmədov, K., Qədirov, A. (2024). Çin xarici siyasətində "ağıllı güc" strategiyası. *Geostrategiya jurnalı*, 61–67. https://doi.org/10.30546/3006-0346.2024.4.82.42
3. Səmədzadə, Z. (2009). *Çin qlobal dünya iqtisadiyyatında.* Bakı, 154–163.
4. Nayton, B. (2007). *Çin iqtisadiyyatı: keçidlər və böyümə.* Kembric: Massaçusets Texnologiya İnstitutu, 333–343.
5. Miller, T. (2017). *Çinin Asiya arzusu: Yeni İpək Yolu boyunca imperiya inşası.* London: Zed Books, 93–124.
6. Maçaes, B. (2018). *Bir kəmər, bir yol: Çin dünya nizamı.* London, 177.